# Koreya Respublikası rəsmisi işğaldan azad ərazilərdə aparılan bərpa işləri barədə məlumatlandırılıb

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Koreya Respublikasının xarici işlər nazirinin xüsusi nümayəndəsi Beyk Cuhyonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan ilə Koreya Respublikası arasında siyasət, iqtisadiyyat, ticarət, təhsil, yüksək texnologiyalar və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər ikitərəfli münasibətlərin genişləndirilməsi, qarşılıqlı səfərlərin intensivləşdirilməsinin əhəmiyyətini vurğulayıblar. Eyni zamanda Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın, həmçinin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin vacibliyi qeyd olunub. 2027-ci ildə ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 35 illiyinin qeyd olunacağı məmnunluqla diqqətə çatdırılıb.

Ölkəmizin bölgədə həyata keçirdiyi genişmiqyaslı enerji və nəqliyyat layihələri, alternativ enerjinin ixracı planlarından bəhs olunub, bu və digər istiqamətlərdə Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı, o cümlədən C6 formatı çərçivəsində qarşılıqlı fəaliyyət məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Regionlararası əlaqələrin inkişafı, nəqliyyat və logistika imkanlarının genişləndirilməsi, habelə iqtisadi tərəfdaşlığın dərinləşdirilməsinin önəmi qeyd olunub.



Ceyhun Bayramov həmçinin postmünaqişə dövründə regionda mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri barədə qarşı tərəfi məlumatlandırıb.

Tərəflər eyni zamanda regional və beynəlxalq təhlükəsizlik məsələləri, o cümlədən Yaxın Şərqdə mövcud vəziyyət ətrafında fikir mübadiləsi aparıblar. Koreya tərəfi vətəndaşlarının ölkəmizin ərazisindən keçməklə İrandan təxliyəsinə göstərilən dəstəyə görə dərin minnətdarlığını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

Azərbaycan. - 2026.- 18 mart (№ 50).- S.4.